*Hekayə*

# Gecəyarısı zəng

■ Bayram İsgəndərli

Gecənin yarısı idi. Hər yan, bəlkə də bütün dünya şirin yuxuda idi. Amma Kərim müəllimin yuxusu ərşə çəkilmişdi. Nə qədər çalışırdısa yata bilmirdi. Səhər işə gedəcəkdi.

Əzabdan yerinin içində qıvrılırdı. Ona elə gəlirdi ki, hamı, bütün dünya onu unudub, unutduğuna görə də belə şirin yuxuya gedib. Birdən-birə hamıya, bütün dünyaya yarı qibtə, yarı paxıllığı tutdu. İstədi qışqırıb hamını, bütün dünyanı yuxudan oyatsın. Soruşsun ki, ayə, necə rəva bilirsiniz, siz yatasınız, bir nəfər yata bilməyə. Niyə demirsiniz ki, dərdin nədir, sərin nədir, niyə yatmırsan? Axı mən də insanam, mən də sizin kimi gecəni şirin-şirin yatmaq istəyirəm. Axı niyə mənimlə maraqlanmırsınız? Bu qədər laqeydlik olar, hə? Niyə dillənmirsiniz? Niyə?

Səssizlik, sükut, gecənin ağırlığı divar kimi onun üstünə gəldi. Bu ağırlıqdan əziləcəyindən qorxub yerindən sıçradı. Bayaqkı sualları yenə hamıya, bütün dünyaya yağış kimi yağdırmağa başladı .- O bir olan Allahdan qoxmursunuz? Niyə mənim dərd-sərim sizi narahat eləmir? Yox, yox, bu saat hamını, bütün dünyanı ayağa qaldıracağam, yuxularına haram qatacağam. Deyəcəyəm ki, sizin haqqınız yoxdur mənə laqeyd olmağa... Yoxdurrrrr...

Gecənin sükutu yenə onu əzdi və birdən telefon aparatı gözünə sataşdı. Ona elə gəldi ki, bütün günah elə bu telefon aparatındadır. Hirslə onun üstünə yeridi: - Bu mobil telefonlar çıxdı-çıxmadı sənin dələvinin döndü. Dilini elə bil qıfılladılar. Ayda, ildə bir dəfə dillənirsən, ya dillənmirsən. Gündə mənə zəng vuranlar da daha zəng vurmurlar. Düz demirəm?

Telefon zəng vurdu. Dəstəyi götürdü. Dəstəkdən gələn səs- zummer onu sevindirdi.- Hə, hə, sən də mənim kimi yatmamısan. Bağışla, xətrinə dəydim. - Dəstəyi yerinə qoydu. Yenə telefon zəng çaldı. Dəstəyi yenə götürdü. Həmin səs-həmin zummer idi. Bu dəfə səs qırıq-qırıq gəldi.- Bəlkə mən də bir zəng vurum, hə? Bu saat... - Ağlına gələn rəqəmləri yığdı. Kiminsə səsi gəldi. Qadın səsi idi. -Bəli, bəli.- Kərim müəllim özünü itirdi. - Bağışlayın, bağışlayın, özüm də bilmədən oldu, - dedi. -Yox, yox, mən bu zəngi gözləyirdim.- Qadın dilləndi.-Mən axı, Kərim müəllim nə deyəcəyini bilmədi. Sonra birtəhər özünü ələ aldı. -Xanım, vallah tamam təsadüfən bu nömrəni yığmışam. Bir də ki, siz mənim zəngimi necə gözləyə bilərdiniz? Niyə mənə böhtan atırsınız? Siz deyən adam mən deyiləm. -Yox, yox, vallah böhtan atmıram. Mən sizin zəngi gözləyirdim. - Qadın israr elədi.

Kərim müəllim lap əsəbiləşdi: - Allaha and olsun ki, ağlıma gələn rəqəmləri yığmışam.- Qadın yenə ona haqq qazandırdı.- Bax görürsünüz... Özünüz deyirsiniz ki, ağlınıza gələn rəqəmləri yığmısınız. Amma ağlınıza başqa rəqəmlər yox, mənim telefonumun rəqəmləri gəlib. - Axı...mən... - Kərim müəllim təslim olmaq qərarına gəldi. -Düzünə qalsa, çox darıxırdım. Elə bilirdim, daha heç kimə lazım deyiləm. Daha mənim üçün darıxan yoxdur. - Səhv edirsiniz, mən, mən sizin üçün darıxırdım.- Qadın köks ötürdü.

Kərim müəllimi maraq götürdü: - Siz məni tanıyırsınız?- Yox, yox, ilk dəfədir ki, səsinizi eşidirəm, amma sizin üçün darıxmışam. Hər gün sizin səsinizi eşitmək istəmişəm. Hər gün telefon zəng çalanda elə bilmişəm sizsiniz...- Qadın yenə köks ötürdü.

-Mənsə sizin üçün darıxmamışam. Heç ağlıma da gəlməyib ki, yer üzündə sizin kimi bir insan var. Yəqin ki, zarafat edirsiniz, qəlbimi almaq istəyirsiniz

-Yox, yox, nə deyirsiniz... Bilirdim ki, siz məni axtaracaqsınız..

Bu mənim ürəyimə dammışdı.

-"Ürəyimə dammışdı." Çox şey adamın ürəyinə dama bilər. Amma onlar reallıqdan uzaqdır. Gerçəkləşməsi mümkün deyil.

-Gerçəkləşməsi heç vacib də deyil. Başlıcası ürəyə dammaqdır. Hə, bax, insan onunla ovunur, təskinlik tapır.

-Məni bağışlayın, ovunmağa, təskinlik tapmağa məndə heç nə yoxdu. Mən o adamlardan deyiləm. Heç vaxt da elə şeylər haqqında düşünməmişəm.

Kərim müəllim cavab gözləmədən dəstəyi yerinə qoydu. Pəncərənin önünə gəldi, dənizə baxmaq istədi. Həmişə darıxanda o belə edirdi. Uzaqda görünən Xəzərə baxırdı. Ona elə gəlirdi ki, dəniz onun lap elə yaxınlığındadır. Həmişə olduğu kimi yenə ləpələr bir-birini qova-qova sahilə gəlir, bulvar boyu çəkilmiş səddə dəyib geriyə qayıdırlar. Və yenidən gəlirlər. Yorulmaq nə olduğunu bilmirlər. Dənizdəki bu qəribəlik onu heyrətə gətirirdi: "Dünyanın sirləri bəlkə də dənizdə gizlənib. Onları başqa yerdə yox, dənizdə axtarmaq lazımdı". İrəli sürdüyü bu fəlsəfi fikir ona ləzzət verirdi. -Hə, bir gün gələcək, alimlər də belə edəcəklər. Dünyanın sirrini dənizdə axtaracaqlar. Bax onda cavabsız suallara cavab verəcəklər.

Amma bu dəfə pəncərədən haboylandısa, dənizi görə bilmədi. Təəccübləndi:-Axı pəncərədən həmişə dəniz görünərdi. Bu gün niyə görünmür? Bəlkə qocalmışam, gözlərim seçmir? Qoy eynəyi tapım görüm. -Eynəyi tapıb gözlərinə qoydu. Yenə də həmin şey idi. Dəniz görünmürdü. Heç elə bil ki, dəniz heç vaxt bu pəncərədən görünməmişdi. Yalnız bunu xəyalında təsəvvür eləmişdi. Birdən özü öz şübhələrini dağıtdı:- Bu boyda bina tikilib burada. O heç qoyar ki, dəniz görünsün. Mən də dənizi görmək istəyirəm. Mənə bax e-e-e... Yaddaşım lap korlanıb. Bu boyda binanın tikildiyini lap unutmuşam...

Ürəyi sıxılmağa başladı. Telefonu qapatdığına görə çox peşman oldu.

-Nahaq yerə "otboy" verdim. Nahaq yerə. Danışırdıq da. Pis bir söz demirdi ki... Fikrini deyirdi də... Mənsə başlamışdım ki, yox elə deyil, belədir, nə bilim nə... Budur, o boyda göydələni tikiblər binamızın qabağında... Heç gör bizdən soruşublar ki, razıyıq, ya razı deyilik? Axı niyə tikiblər? İndi mən dənizə baxmaq istəyirəm, necə baxım, hə?

Telefon zəng vurdu. Kərim müəllim fikirdən ayrıldı. Telefona sarı getdi.- Kaş o qadın olaydı,- deyə düşündü. Dəstəyi qaldırdı. Həmin qadın idi.

-Məni düşünürdünüz, hə? Düzünü deyin.

- Bilirsiniz, dənizə baxmaq istədim, amma...

-Necə, dənizə? Maraqlıdır... Mən də baxmaq istədim, amma...

Ola bilməz. Yenə nəsə uydurmaq istəyirsiniz.

-Niyə mən dənizə baxa bilmərəm? Burada nə var ki? Qadağandır?

- Yox e. Baxmaq olar. Amma... Mən baxa bilmirəm.

- Hə, mən də baxa bilmirəm.

-Yenə mən deyəni deyirsiniz. Mənim dənizə baxa bilməməyimin başqa bir səbəbi var.

-Elə mənim də.

Kərim müəllim yenə də hövsələdən çıxdı:

-Axı niyə mənə yalan deyirsiniz? Bir də ki, siz məndən nə istəyirsiniz?

- Mən? Mən heç nə istəmirəm. Amma istəyirəm ki, sizinlə danışım, səsinizi eşidim.

Kərim müəllimin birdən-birə qadına yazığı gəldi.

-Yaxşı. Bəlkə sənə bir nağıl danışım.

-Danış.

-Hansı nağılı?

-Yadımda qalıb ki?

-Heç mənim də yadımda qalmayıb.

Kərim müəllim susdu. Yaddaşını ələk-fələk elədi. Amma heç bir nağıl yadına düşmədi.

Qadın da susurdu. Onun danışmağını gözləyirdi. Onun nədənsə əsəbiləşib dəstəyi yerə qoyacağından qorxurdu.

Kərim müəlliminsə yadına heç bir nağıl düşmürdü. Nədənsə başqa bir şey haqqında deyil, məhz dənizlə bağlı bir şey quraşdırıb danışmaq qərarına gəldi. Və başladı danışmağa:

- Biri vardı, biri yoxdu, iki sevgili vardı. Hər ikisi bir-birini dəlicəsinə sevirdi. Oğlan dövlətli adamın oğlu idi, qızsa kasıb adamın. Ata-anaları övladlarının bu sevgilərindən xəbər tutdular. Heç biri bu icdivaca razılıq vermədi. Oğlanın valideynləri dedilər ki, sənin adaxlın dövlətli qızı olmalıdır. Onlar bizim tayımız deyil...

Qadın söhbətə qoşuldu:

- Qızın da valideynləri dedilər ki, biz onların tayı deyilik. Tök bu daşı ətəyindən, bala.

Kərim müəllim nağılı davam etdirdi:

-Nə oğlan sözə qulaq asır, nə də qız. Onlar gəlirlər...

Qadın dedi :

- Gəlirlər dənizin sahilinə.

Kərim müəllim uydurduğu nağılı yarımçıq saxladı. Yenə qadını sıxmaboğmaya saldı.

- Axı siz hardan bilirsiniz ki, dənizin sahilinə gəlirlər?

Qadın dedi:

-Bilirəm də.

Kərim müəllim:

-Elədirsə, deyin görüm niyə ora gəlirlər?

Qadın dedi:

-Gəlirlər ki, orada dənizin şahidliyi ilə and içsinlər. And içsinlər ki, ömürləri boyu bir-birinə sədaqətli olacaqlar. Əgər kim andını pozsa, səhər günəş çıxan zaman özünü dənizə atacaq. Atacaq ki, ruhu günəşin şəfəqləri altında dənizdə paklanıb geri qayıtsın.

Kərim müəllim:

-Yaxşı, deyin görüm kim andını pozdu? Kim?

Qadın dedi:

- Sizcə, kim poza bilər?

Kərim müəllim arxayıncasına dedi:

- Əlbəttə ki, qız.

Qadın dedi:

-Yox, oğlan.

Kərim müəllim:

-Mən deyirəm ki, qız.

Qadın dedi:

-Mən deyirəm ki, oğlan.

Kərim müəllim:

-Vallah, ya siz mələksiz, ya da iblis.

Qadın kövrək bir səslə dedi:

Mən olanı deyirəm də.

Kərim müəllim diksinən kimi oldu.

Qadın bir qədər susdu, sonra köks ötürüb dedi:

-Hə, mən sizə yalan demək istədim. Siz düz deyirsiniz. Qız valideynlərinin sözünə baxıb əhdini pozur. Sevmədiyi başqa bir oğlana ərə getməyə razılıq verir. Toy günü başa düşür ki, sevmədiyi oğlanla ömür sürə bilməyəcək. Gəlib özünü dənizə atır.

Qadın davam elədi:

-Oğlan bu hadisədən sarsılır. Hər gün günəş çıxanda dənizin sahilinə gedir. İnanır ki, ruhən paklanmış sevgilisi dənizdən çıxıb onun yanına gələcək. Onlar bir-birinə qovuşacaqlar. Xoşbəxt bir ömür sürəcəklər.

Kərim müəllim:

-Elədir. Axı siz bunları haradan bilirsiniz? Bu nağılı mən özümdən uydurmuşam. Özü də heç kimə deməmişəm.

Qadın dedi:

-Heç kimə deməmisiniz. Amma görürsünüz ki, mən onları bilirəm. Düz dediyimə şübhəniz yoxdur ki?

Kərim müəllim:

- Yox.

Qadın dedi:

- Hə, lap yadımdan çıxmışdı. Dənizə baxmağa sizə nə mane olur?

Kərim müəllim :

- Nəsə bir şey mane olur da. Bir də ki, desəm guya bir əlac eləyəcəksiniz?

Qadın dedi:

-Deyim dənizə baxmağınıza nə mane olur? Deyim?

Kərim müəllim:

-Onu da düz desəniz, mən dəli olacağam.

Qadın dedi:

-Yaxşı, demirəm. Onda sağ olun. Bir azdan səhər açılacaq. Yəqin ki, əhdinə sədaqətli olan oğlan çoxdan dənizin sahilində dayanıb sevgilisinin qayıdacağını gözləyir.

Qadın dəstəyi yerinə asdı. Kərim müəllimin əlindəki dəstəkdə siqnallar eşidildi:

-Düd, düd. D-ü-d-d-d...

Kərim müəllim bir anlığa nə edəcəyini bilmədi. Sonra yavaş-yavaş özünə gəldi:

-Heç adını da soruşmadım. Telefon nömrəsini də götürmədim. Heyif! Dediyim sözlər üçün yaman xəcalət çəkirəm. Görünür, yaxşı qadın imiş....

Dəstəyi yerinə qoydu. Durub yatağına girdi. Dərhal da onu yuxu apardı...

**P.S.** Hekayəmin qəhrəmanları eyni binada yaşayırlar. Biri beşinci, o biri yeddinci mərtəbədə olur. Mənzilləri ayrı-ayrı bloklardadır. Bir binada yaşasalar da heç vaxt bir-birinə rast gəlməyiblər, kəlmə də kəsməyiblər. Qəribə olsa da, bu gün səhər hər ikisi işə gedəndə rastlaşdılar, ani olaraq bir-birinə baxdılar. Tez də nəzərlərini bir-birindən çəkdilər. Çünki hər ikisi axşamkı telefon söhbətinin cazibəsində idi.



■ Samir Vəliyev

### SÖZ

Söz var, dil ucunda, çıxmaz ağızdan,
Söz var, çıxmaq üçün paralar dili.
Söz var, qəlbə düşər adi kağızdan,
Söz var, yerə düşər, bükdürər beli.

Söz var, mənasından hecası çoxdur,
Düşər dildən-dilə hərf karvanı.
Söz var, bölünməyə hecası yoxdur,
Mənası bir elin qılınc-qalxanı.

Söz var, həqiqətə tuşlayar gözü,
Zəhmiylə süzdürər yaş da yanaqdan.
Söz var, utandırar, qızardar üzü,
Üz sözdən qızarar, göz ağlamaqdan.

Söz var, vədə olar, yolun gözlədər,
O yola göz dikən xəyallar yorğun.
Söz var, naza çəkər özün gizlədər,
Onu da gözləyən suallar yorğun.

Söz var, yayılması bir küyə bənddi,
Söz var, dilə məhkum, bir əsir kimi.
Söz var, baş ağrısı, hər üzü dərddi,
Aranar dillərdə müqəssir kimi.

### GÖZDƏN UZAQ

Hisslərim qəlbimlə qucaq-qucağa,
Ağlım istəmirəm, düşünə nəsə.
Qaçıb ümidlərlə gözdən uzağa,
Qalmaq istəyirəm nəfəs-nəfəsə.

Nə bir deyiləsi söz ola, deyəm,
Nə də bir sirr ola, susdura məni.
İndi susuramsa, ...
Yol üstündəyəm,
Qorxuram, danışam, dil yora məni.

Gərçi danışdım nə, danışmadım nə,
Guya ki səsimi eşidən var da.
Onsuz bu gedişin özü bəhanə,
Mənə "get" deyəcək kimsə yox burda.

Tozunu udmaqdan divarın, daşın
İçim daşa dönüb.
Kövrəlməyəcəm.
Yollar!
Barı mənlə siz vidalaşın,
Madam istəmirsiz, ta gəlməyəcəm.